UOT 327

# KOLONİAL ƏNƏNƏLƏR VƏ NEOKOLONİALİZM

**Nərgiz NAĞIYEVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 30 sentyabr 2024; çapa qəbul edilmişdir: 11 oktyabr 2024; online-da çap edilmişdir: 11 dekabr 2024.
Received: 30th of September, 2024; accepted: 11th of October, 2024; published online: 11th of December, 2024.

**Açar sözlər:** *neokolonializm, imperializm, müstəmləkə, Qərb, müstəmləkəçilik, Afrika, Fransa*

## Giriş

Bəşər tarixində "başqalarının resurslarından ədalətsiz istifadə etmək" mənasında başlayan müstəmləkəçilik müasir mənasını XV əsrdə alır. XIX əsrin sonlarından yaranmış və bu günə qədər davam edən bir proses olaraq Avropanın qüdrətli dövlətlərinin dünya ölkələrinin torpaq və sərvətlərini kəşfiyyat, ilhaq, işğal və müsadirə edərək öz ölkələri üçün istifadə etməsi fenomenidir. Avropalıların dənizlərə üz tutaraq, Ümitburnu (1488) və Amerikanı (1492) tapması ilə xronoloji olaraq başlayan bu fenomendə İngiltərə zamanla mübahisəsiz üstünlük əldə etmiş və son dövrlərə qədər dünyanın ən böyük müstəmləkə imperiyasına sahib olmuşdur. İmperializm və hegemonluq qədim dövrlərdən bəri imperiyaların böyük torpaqlara yayılması ilə başlamış, yeni və daha böyük bir güclə qarşılaşana qədər daha da genişlənməyə və irəliləməyə davam etmişdir. Müasir dövrdə də böyük dövlətlər torpaq əldə etmək və hökmranlıq etmək məqsədilə yeni bir böyümə və genişlənmə üsulu tapdılar. İstismara əsaslanan hegemonluq hələ də davam edir.

Əsrlər boyu müstəmləkə dövlətlərinin hökmranlığı altında yaşayan ölkələrin azad edilməsini, ölkə əhalisinin sənayeləşmə yolu ilə inkişaf tələbləri ilə müşahidə olunmuşdur. Amma məhz ümidlərin yüksəldiyi, azadlıq hərəkatlarının bütün dünyanı bürüdüyü bir vaxtda görünəcək ki, milli inkişaf proqramı həyata keçirən ölkələr dünya kapitalı ilə rəqabət apara bilməyəcək qədər geri qalıb.

Neokolonializm, müstəmləkə idarələrinin rəsmi sona çatmasına baxmayaraq, müstəmləkəçiliyin iqtisadi, siyasi və mədəni olaraq necə davam etdiyini araşdıran fənlərarası bir araşdırma sahəsidir. Neokolonial yanaşma müstəmləkəçilik prosesinin açıq və ya üstüörtülü bir dövr kimi başa çatmasının qəbul edilməsinə etirazla yeni formaların mövcudluğu və davam edən təsirinə toxunur.

## 1. İmperializm və hegemoniya

A.Gündüzə görə, müstəmləkəçilik bir millətin və ya cəmiyyətin yad dövlətlər tərəfindən birbaşa siyasi nəzarət altına alınması, bir millətin və ya dövlətin başqalarına məxsus bütün maddi və mənəvi sərvətlərin zorla alınması və ya ötürülməsi kimi müəyyən edilir [5, s. 764]. Müstəmləkəçilik və imperializm siyasi hadisələri bir-biri ilə sıx əlaqəlidir. Bəzən müstəmləkəçilik anlayışı kolonializmlə qarışdırılır, lakin Loombanın da [9, s. 18-

* *siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent, Bakı Dövlət Universiteti*
*e-mail:* nargiz_nagiyeva@mail.ru
**https://doi.org/10.30546/25194011.2024.13.5.0156**

19] qeyd etdiyi kimi, kolonializm vətənə bağlı qalmaqla yeni torpaqlarda məskunlaşmaq, torpaqları və sərvətləri fəth etmək və onlara nəzarət etməkdirsə, müstəmləkəçilik və ya imperializm anlayışlarına isə iqtisadi, sosial, siyasi, mədəni, dini və s. sahələrdə hökmranlıq və talançılıq daxildir. Coğrafi kəşflərlə başlayan, Avropa müstəmləkəçiliyinin (hökmranlığının), onun əhalisinin və kapitalının dünyanın qalan hissəsinə yayılması prosesinin sənaye kapitalizminə keçidlə birlikdə özünəməxsus formasını ifadə etmək üçün istifadə olunan imperializm sistemi və fenomeni həmişə öz xüsusiyyətlərini qoruyub saxlamışdır [10, s. 22].

Hegemoniya termini qədim yunan sözü olan "hegeisthai" ifadəsindən götürülmüşdür. İlkin mənada istiqamətləndirmək, rəhbərlik etmək mənasını verir və dövlətlər arasında siyasi münasibətləri müəyyən etmək üçün istifadə olunurdu. Mənası səlahiyyət, idarəçilik və siyasi üstünlük deməkdir [6, s. 66].

Qərb dövlətlərinin qeyri-Qərb cəmiyyətləri üzərində iqtisadi, mədəni və hərbi üstünlük təşkil etməsi tarixi və sosioloji hadisədir. Müstəmləkəçiliyin siyasi hadisə olmaqla yanaşı, sosial, mədəni və təbii ki, daha çox iqtisadi tərəfləri var. Ritzerə görə [11, s. 6], müasir kapitalist cəmiyyətlərinin inkişafında əsas amillərdən biri və bəlkə də ən mühümü müstəmləkəçilikdir. Avropa ölkələri arasında Asiya qitəsində müstəmləkəçilik fəaliyyətinə başlayan, XV-XVI əsrlərdə Hindistana çatan ilk ölkə Portuqaliya, sonra isə İspaniya oldu. Fransa, İngiltərə və Hollandiya bu ölkələrin siyasətini davam etdirdi. Aşkar edilmiş bölgələrdəki koloniyalar Avropa dövlətləri üçün hər cəhətdən zənginlik mənbəyi olmuşdur.

XVIII əsrin filosoflarından Adam Smit coğrafi kəşflərlə müstəmləkəçilik arasındakı əlaqəni belə xülasə etmişdir: "Amerikanın kəşfi, Ümid burnunu keçmək və Şərqi Hindistana çatmaq bəşər tarixindəki ən mühüm hadisələrdən ikisidir... yeni müdaxilə formaları... yeni dünyaya da böyük üstünlüklər verməli idi. Köhnə dünyaya gəlincə... Avropalıların hamıya faydalı olmalı olan cəngəllik qanunları bir çox şanssız ölkələr üçün dağıdıcı oldu" [4, s. 17]. Dünya müstəmləkəçilik tarixində çox böyük tarixə malik olan Fransa və İngiltərə müstəmləkəçilik adı altında davamlı rəqabət və mübarizə içərisində olmuşlar. Uyğurun qeyd etdiyi kimi, bu iki dövlət öz müstəmləkələrində Avropa qitəsində ərazi müharibələrini davam etdirirdilər [13, s. 274]. Sənaye inqilabının Fransanın inkişafında ən mühüm amillərdən biri olduğu, lakin Fransanın Afrikada və dənizaşırı torpaqlarda koloniya və yarımkoloniyalar yaratması nəticəsində əsl imperiya gücünə çevrildiyi bildirilir. Müstəmləkə dövlətləri Afrikada və digər koloniyalarda yerli xalqlar üzərində hökmranlıqlarını daha da qanuniləşdirməyə çalışırdılar. Bu zaman irqçilik hadisəsi böyük rol oynadı. Çünki yerli xalqların qul kimi təsəvvür edilməsi və bu vəziyyətin uzun müddət davam etməsi irqlər arasında üstünlük iyerarxiyasına əsaslanırdı. Müstəmləkə dövlətləri özlərini sivil cəmiyyətlər, müstəmləkələrin zəif inkişaf etmiş xalqlarını isə "vəhşi və barbar" cəmiyyətlər kimi qələmə verirdilər. Dövrün qabaqcıl mütəfəkkirlərinin belə müstəmləkəçiliyi qanuniləşdirməyə çalışdıqları və bunu bir zərurət kimi gördükləri faktı da mövcuddur. Bu vəziyyətə misal olaraq sosioloq Tokvilin Əlcəzairdə fransız müstəmləkəçiliyini dəstəkləməsi və müstəmləkə edilmiş xalqı "aşağı irqlər" kimi görməsi göstərilir [11, s. 6-7].

1970-ci illərə qədər bir çox antropoloq koloniyaların yerli xalqlarının oturaq insanlar olduğunu göstərən arxeoloji sübutları inkar edirdi. Onların dediyinə görə, bu yerlilər ovçu-toplayıcı xarakterli insanlar olub. Əsrlər boyu davam edən bu səhvin əsas məqsədi yerlilərin yaşadıqları torpaqlar üzərində heç bir hüquqlarının olmadığını və orada ancaq ovlamaq üçün dolaşdıqlarını hamıya qəbul etdirmək istəmələridir. Bu səbəbdən Avropalılar yerli əhalinin torpaqlarının əlindən alınmasında heç bir mənəvi və hüquqi problem olmadığını iddia edirdilər [4, s. 19]. İmperialistlər "şərqliləri" müstəmləkələrdə həmişə yalnız idarə olunan insan olduğunu iddia edirlər. Onların fikrincə, şərqli ümumiyyətlə avropalıya tam əks şəkildə hərəkət edir, danışır və düşünür. Şərqlilər və ya ərəblər sadəlövh, güc və təşəbbüskarlıqdan məhrum, yaltaqlığa, intriqaya düşkün, heyvanlara qarşı

amansızdırlar. Şərqlilər ağıllı avropalılar kimi demək olar ki, hər şeyi dərk edə bilmirlər və düzəlməz yalançılardır. Şərqlilər anqlosakson irqinin açıqlığına, qeyri-rəsmiliyinə və zadəganlığına tamamilə ziddir. Şərqli potensial cinayətkardır, şərqlinin törətdiyi cinayət isə şərqli olmasıdır [12, s. 25]. Bu oriyentalist baxış müstəmləkəçiliyin nə qədər haqlı olub-olmadığına dair baxışın əsasını təşkil edir.

Bu gün ölkələr arasında bərabərsizliyin, istismar nəticəsində yaranan zənginliyin və yoxsulluğun əsl səbəbinin Sənaye inqilabından sonrakı imperialist nizam olduğu iddia edilir [6]. Sənaye İnqilabından sonra yaranan xammala böyük ehtiyac, izafi əmtəə satmaq üçün bazar axtarışları, Avropa dövlətlərində texnoloji yeniliklərin hərbi silahlanmaya verdiyi töhfə, imperiyaların ekspansionist ambisiyaları Birinci Dünya Müharibəsinə səbəb oldu. Ceyms və Martelə görə, Birinci Dünya Müharibəsinin əvvəlində İngiltərənin baş naziri olmuş Herbert Asquit müstəmləkəçiliyin inkişafının "millətlər üçün normal, zəruri, qaçılmaz və görünən həyat əlaməti" kimi müəyyən etmişdir, eynilə insan orqanizminin inkişaf prosesi kimi" [7].

Böyük dağıntılarla nəticələnən müharibədən sonra İngiltərə və Fransa kimi böyük dövlətlər güclərini itirdilər. Osmanlı İmperiyası dağıldı və indiyə qədər onun nəzarətində olan torpaqlarda çoxlu kiçik dövlətlər quruldu. Müstəmləkəçilik anlayışı mandat və müdafiə ilə əvəz olundu və müstəmləkəçilik sistemi müxtəlif yollarla mövcudluğunu davam etdirdi. Əsrin əvvəllərində bağlanan müqavilələr və çəkilən sərhədlər imperiya dövlətlərinin xeyrinə tənzimlənirdi. Cəmiyyətlər arasında mənəvi divarlar hörüldü, min illik ortaq mədəniyyət və inanclara malik insanlar bir-birinə düşmən oldular. Hər iki dünya müharibəsi müstəmləkəçiliyin tənəzzülü ilə nəticələnsə də, müstəmləkəçilikdə mühüm inkişaf İkinci Dünya Müharibəsindən sonra baş verdi.

Müstəmləkələrdə meydana çıxan millətçi hərəkatlar öz müstəqilliklərini əldə etdilər, lakin siyasi müstəqillik çox da mühüm əhəmiyyət kəsb etmədi, imperialist dövlətlərin "yeni müstəmləkəçilik" metodları ilə müstəmləkəçilik əlaqələrini fərqli şəkillərdə davam etdirdiyi görülmüşdür.

Müasir dövrdə imperializm üstüörtülü də olsa müasirliklə yanaşı götürülürdü. Hardt və Neqri imperializmin bir-birini tamamlayan xüsusiyyətinin dünyada müəyyən ərazilərə nəzarət edən və istismar edən bir və ya bir neçə xalqın mövcud olduğunu bildirmişlər [11, s. 620]. Nəzəri ölçüdən praktiki sahəyə hərtərəfli proqressivizm tətbiq olunduqda imperialist və kapitalist proseslər baş verir. Avropa xalqlarının özlərini bəşəriyyətin nümayəndələri kimi göstərmələri, qeyri-Qərb cəmiyyətlərini sivilləşdirmək və modernləşdirmək səlahiyyətinə malik olduqlarını təsəvvür etmələri bu yanaşmanın tətbiqinə konkret nümunə kimi göstərilir [3, s. 55]. Hegemon dövlətlər müstəmləkə dövlətləri ilə münasibət qurarkən, müstəmləkəçi dövlətlərin məqbul hesab etdiyi adamları təyin etmək və hakimiyyətdə saxlamaq üçün onlara təzyiq göstərirlər. Eyni zamanda, hegemon dövlətlər bir müstəmləkə dövlətin digər müstəmləkə dövlətləri ilə münasibət qurmasının qarşısını almaq üçün tədbir görürlər. Hegemon dövlətlərin ən mühüm strategiyalarından biri onların sosial və mədəni sahədəki fəaliyyətləri olmuşdur. Onlar müstəmləkələrlə uzunmüddətli münasibətlərini saxlamaq üçün müstəmləkə dövlətlərinə təzyiq göstərirlər ki, mədəni təcrübələrini, dil siyasətlərini, təhsil siyasətlərini, o cümlədən universitet tələbələrinin akademik inkişafını, medianın fəaliyyətini onların tələblərinə uyğun inkişaf etdirsinlər. Tarixin müxtəlif dövrlərində bir hegemonluğu digər oxşar hökmranlıq formalarından fərqləndirən əsas məqam ondan ibarətdir ki, ikinci dərəcəli dövlətlər təkcə maddi güc resurslarının yaratdığı təzyiqə görə deyil, həm də maraqları dərk etmələrindəki oxşarlığa görə hegemonun rəhbərliyinə razılıq verirlər. Okurun fikrincə, hegemon dövlətin gücünün digər dövlətlərə nisbətən daha çox olmasının səbəbi istismar olunan dövlətlərdə insanların maddi maraqlar naminə istismara əl atmasıdır [10, s. 62-63].

İkinci Dünya müharibəsi dekolonizasiya prosesində mühüm dönüş nöqtəsidir [14,

s. 217-219]. Müharibədən sonra Sovet İttifaqının müstəmləkəçilik əleyhinə münasibəti müstəmləkələrində kommunizmin yayılmasından narahat olan Qərb ölkələrini müstəmləkələrini tərk etmək məcburiyyəti ilə müqayisə edərək, müstəmləkəsizliyin sürətini artırmaqda təsirli oldu. Bundan əlavə, Asiya dövləti olaraq Yaponiyanın İkinci Dünya müharibəsində Fransa, Böyük Britaniya və Hollandiya kimi imperialist gücləri məğlub etməsi bu güclərin öz müstəmləkələrindəki nüfuzunu sarsıtdı və nəticədə Hindistan, Birma, Qana, Myanma, Tunis, Liviya və digər müstəmləkələrdə müstəqillik uğrunda qələbələr tələb edildi [14, s. 217].

Müstəmləkə gücləri İkinci Dünya müharibəsinin sonunda iqtisadi cəhətdən zəifləmiş və əvvəlki sabitliyini itirərək, yerlərini dəyişən dünya nizamının yeni super dövlətləri olan Sovet İttifaqı və ABŞ-a imperilizminə buraxaraq Asiyada güclərini itirməyə başlamışlar.

Burjuaziyanın dəstəklədiyi müstəqillik kampaniyaları Hindistan, Pakistan, Qana və Şri-Lanka (Seylon) kimi burjua sinfinin ələ keçirməyə hazır olduğu ölkələrdə təsirli olduğu halda, az inkişaf etmiş koloniyalarda daha mübariz yerli müqavimət tələb olunurdu. Yerli anti-müstəmləkə hərəkatlarına ən çox müqavimət göstərən Fransa və Portuqaliya kimi müstəmləkəçi dövlətlər bəzi müstəmləkələrində (Mozambik və Vyetnam kimi) milli azadlıq cəbhələrinin silahlı müqaviməti ilə üzləşdilər. Silahlı azadlıq hərəkatlarının konstitusiya yolları ilə müstəqillik tələbinin ödənilmədiyi və ya müxtəlif formalarda muxtariyyət əldə etmiş müstəmləkələr üzərində siyasi nəzarəti bərpa etməyə cəhdlər edildiyi hallarda ortaya çıxdığı görünür. Vyetnam, Keniya, Kamerun, Qvineya-Bisau, Zimbabve, Eritreya, Anqola və Mozambik bu cür mübarizələrin ortaya çıxdığı koloniyalara misaldır [14, s. 217-219].

İlk dəfə 1952-ci ildə Henri Labouret tərəfindən istifadə edilən dekolonizasiya termini müstəmləkə rejimi altında olan insanların müstəqilliyə çatması prosesini ifadə edir (18, s. 2).

1960-cı illərin əvvəllərində Afrikanın müstəmləkəsizləşdirilməsi prosesi başladı. Fransa, Böyük Britaniya, İngiltərə və Belçikanın hakimiyyəti altında olan 17 müstəmləkə bir il (1960-cı il) ərzində müstəqillik əldə etdikdə bu, ən yüksək nöqtəyə çatdı. Portuqaliya müstəmləkələrindən biri olan Qvineya-Bisau 1974-cü ildə, Anqola və Mozambik isə 1975-ci ildə müstəqillik qazanarkən, yerli xalqın ağdərili istismarçılara qarşı mübarizəsi 1962-ci ildə Əlcəzairdə, 1963-cü ildə Keniyada, Cənubi Rodeziyada, 1994-cü ildə Cənubi Afrika Respublikasında da davam etmişdir [16, s. 230].

1783-cü ildə İngiltərənin on üç koloniyasının müstəqilliyini tanıması ilə başlayan və 1983-cü ildə Sent Kitts və Nevis Federasiyasının müstəqilliyinə qədər davam edən dekolonizasiya prosesində 165 koloniya ya müstəqil oldu, ya da mövcud suveren dövlətlərə qoşulmaq iradəsini nümayiş etdirdi [15, s. 429].

Bu gün Cəbəllütariq, Folklend/Malvin adaları, Qrenlandiya, Hollandiya Antilləri, Fransız Qvianası, Puerto Riko, Samoa və Virgin adaları, Kanar, Seuta və Melilla adaları kimi nümunələrdə asılılığın müxtəlif adlar altında davam etdiyi fikirlər mövcuddur [14, s. 4].

Müstəmləkəçiliyin dekolonizasiya ilə rəsmi sonu onun həqiqətən bitib-qurtarması ilə bağlı yeni mübahisələrə səbəb oldu. Bu müzakirələr arasında ən çox diqqət çəkənlərdən biri müstəmləkəçiliyin yeni versiya ilə əvəz olunduğu iddiası üzərində dayanır.

## 2. Neokolonializm

İkinci Dünya müharibəsindən sonrakı dövrdə müstəmləkələrin sürətlə müstəqillik əldə etdiyi dövrdə siyasi müstəqilliyin həqiqətən də müstəmləkəçilik dövrünü bitirdiyinə dair şübhələr yaranmağa başladı. Qananın müstəqillik mübarizəsinin mühüm simalarından olan və 1957-ci ildə ölkənin müstəqillik əldə etməsindən sonra ilk prezident vəzifəsini icra edən Kvame Nkrumah (Kwame Nkrumah), öz təcrübələrinə əsaslanaraq, "Yeni kolonializm

– imperializmin son mərhələsi" adlı əsərində neokolonializm nəzəriyyəsini ortaya atdı. Müstəqillik nümayiş üçün idi və iqtisadi müstəqilliklə tamamlanmadı [17, s. 60-62]. Nkrumahın nəzəriyyəsinə görə, Afrika zəngin resurslara malik olsa da, müstəqillik əldə etdikdən sonra bu resurslar qitəyə sərvət kimi qayıtmadı, əksinə, insanları yoxsullaşdırmaq üçün çalışan fərdləri və qrupları zənginləşdirməyə davam etdi. Müstəmləkəçilik aradan qalxsa da, onun yerini imperializmin son mərhələsi olan neokolonializm tutdu. Müvafiq olaraq, müstəqillik əldə etmiş müstəmləkələr nəzəri cəhətdən müstəqil idilər. Lakin onların iqtisadi sistemləri və siyasi siyasətləri hələ də müxtəlif üsullarla xaricdən idarə olunurdu [17, s. 9-10].

Nkrumahın fikrincə, yeni müstəmləkəçiliyin ən ifrat formasında imperialist hakimiyyətin qoşunları neokolonial nəzarətə tabe olan dövlətin sərhədləri daxilində hərbi qərargah saxlamaqla həmin dövlətin idarəçiliyinə nəzarət edirdilər. Bununla belə, Nkrumah qeyd edir ki, neomüstəmləkə nəzarəti əsasən iqtisadi və pul vəsaitləri ilə fəaliyyət göstərirdi. Neokolonial nəzarətə tabe olan bir dövləti, rəqib məhsullar istisna olmaqla, imperialist gücün istehsal etdiyi məhsulları almağa məcbur etmək sistemin iqtisadi vasitələrlə işləməsi buna misal ola bilər [14, s. 60-62]. Neokolonial nəzarət daha çox müstəqillikdən əvvəlki müstəmləkə gücünə aid olsa da, Cənubi Vyetnamda olduğu kimi, müstəmləkə nəzarəti olan güc (Fransa) və neokolonial nəzarəti olan güc (ABŞ) fərqli ola bilər. Bununla belə, neokolonial nəzarətin konkret dövlət kimi müəyyən edilə bilməyən maliyyə maraqlarına söykənməsi də mümkündür [17, s. 9-10].

Robert Yanqın dediyi kimi, Nkrumah post-müstəmləkəçilik nəzəriyyəsi tərəfindən də qəbul edilən postkolonial iqtisadi gücün parametrlərini ortaya qoydu [14, s. 62].

Buna uyğun olaraq, neokolonializmdə xarici kapital dünyanın az inkişaf etmiş regionlarını inkişaf etdirməkdənsə, istismar etmək üçün istifadə olunur. Yoxsul və zəngin ölkələr arasındakı uçurum sərmayələrlə azaldılmaq əvəzinə artırılsa da, yardım inkişaf etməkdə olan ölkələr üçün faydasızdır və neokolonial nəzarəti əlində saxlayanların cibinə gəlir kimi qayıdır. Nkrumahın fikrincə, neokolonializm tək başına dayanma gücü olmayan və həm xarici müdafiə, həm daxili təhlükəsizlik, həm də iqtisadi sistem baxımından keçmiş müstəmləkəçi dövlətlərdən asılı olmağa davam edən kiçik müstəqil dövlətlərə çevirmək prinsipinə əsaslanırdı. Buna görə də neomüstəmləkə nəzarətinə məruz qalan ölkələrə qoyulan sərmayələr və yardımlar bu ölkələrin inkişafına heç bir töhfə vermədi və hətta onlara zərər verdi. Bu dövlətlər ilk növbədə əsas məhsullarını inkişaf etmiş ölkələrin müəyyən etdiyi qiymətə satmağa, inkişaf etmiş ölkələrdən aldıqları məhsulları isə bu ölkələrin müəyyən etdiyi qiymətə almağa məcbur oldular. Neokolonializm inkişaf etmiş ölkələrin optimal inkişafı üçün şərait yaratsa da, inkişaf etməkdə olan ölkələrin öz bazarlarını yaratmaq və əsas məhsullarını öz təyin etdikləri qiymətlərlə satmaq üçün maliyyə gücünə malik olmasına mane oldu [15, 11,12-13].

Nkrumah qeyd edir ki, neokolonial sistemdə yardım adı altında nəzarət edilən ölkəyə köçürülən pullar bu ölkələrin inkişafına töhfə vermir. Yeni müstəmləkəçilərin nəzarəti altında olan ölkəyə köçürülən pullar yalnız mənfəət kimi neokolonial dövlətlərin cibinə qayıdır, çünki inzibati səlahiyyətlərini neokolonial güclərdən alan dövlət idarəçiləri təhsilin yaxşılaşdırılmasında, işçilərin sövdələşmə gücünün artırılmasında çox az maraqlıdırlar. Bu ölkələrdə neokolonial hakimiyyətə tabe olan dövlətdən alınan xammalın yüksək qiymətlərlə alınması və ya kapitalist istehsalçılarının inhisarçılığı ilə rəqabət aparacaq sənaye müəssisələrinin yaradılması şəklində yardımın istehsalçıların reaksiyasını cəlb edəcəyi narahatlığı ilə təmin edilmədiyi halda, hətta təhsil yardımı neokolonial rejimə qarşı çıxan tələbə hərəkatını dəstəkləyə biləcəyi səbəbi ilə şübhəli görünürdü. Bu nöqtədə hərbi yardım neokolonial güclər üçün ağlabatan görünən yeganə yardım növü kimi önə çıxır [17, s.10-16, 1].

Youngun qeyd etdiyi kimi, Nkrumahın nəzəriyyəsi post-müstəmləkə sisteminin əsaslı

iqtisadi izahını verməsi baxımından vacibdir [14, s. 65].

Neokolonializm anlayışı bəzi postkolonializm tənqidlərində yer alır və onun müstəmləkəçiliyin davamlılığını tənqid etməsi baxımından daha faydalı olduğunu iddia edir. Bu tənqidə qarşı, davam edən müstəmləkəçilik fəaliyyətinin izahı faydalıdır, lakin müstəqillikdən sonra baş verən siyasi inkişaflarla yetkinləşmiş mədəni iddiaların konseptuallaşdırılmasında neokolonializm anlayışının funksional olmadığına etiraz edilmişdir [14, s. 66].

Müasir dövrdə kolonializmi hələ də davam etdirən Fransa Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal edib, onların sərvətlərini talayıb, insanlıq tarixinin utancverici cinayətlərini törədib. Həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətmiş fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırıma məruz qoyub. Lakin rəsmi olaraq Paris nümayəndələri hələ də insanlıq əleyhinə törədilmiş bu cinayətlərə görə üzr istəməyib, hətta çirkin əməllərini davam etdirməkdə maraqlıdır. Bu ərazilərdə həyata keçirilən nüvə sınaqları, uranın zənginləşdirilməsi istiqamətində fəaliyyət bu məkrli siyasətin göstəricisidir. Fransa tərəfindən 200-ə yaxın, 6 il ərzində isə Əlcəzairdə 17 nüvə sınağı həyata keçirilib. Bu kimi hallar əhalinin səhhətində ciddi fəsadlar yaradıb, ətraf mühitə böyük ziyan vurub. 1980-ci ildə Fransa özünün də ratifikasiya etdiyi BMT-nin Mülki və Siyasi Hüquqlar haqqında Paktı qəsdən pozur, ölkələrin daxili siyasətinə müdaxilə edir, xalqların öz müqəddəratını təyinetmə hüququnu əlindən alıb. Azərbaycan müasir dövrdə keçmiş müstəmləkəçilik ənənələrinin davam etməsindən narahatlığını dəfələrlə ifadə edib. Bu mövzuda bir çox elmi konfransların keçirilmiş, kolonializmdən əziyyət çəkən xalqlara dəstək göstərilmişdir [16].

Dünyanın ilk müstəqil qaradərili ölkəsi olan Haiti həm də tarixi ədalətsizliyin ən böyük qurbanıdır. Bu ədalətsizlik onun inkişafını ləngitməklə bərabər, xalqını da çətin vəziyyətlə üz-üzə qoyub və bunun nəticələri bu gün də hiss olunur. 1825-ci ildə qəhrəmancasına mübarizə yolu ilə azadlığını qazandıqdan 21 il sonra Haiti müstəqilliyinin tanınması müqabilində müstəmləkəçi ölkə Fransaya böyük məbləğdə borc ödəməyə məcbur oldu. Təhdid altında qoyulan bu fidyə gənc dövlətin resurslarını tükəndirdi və onu hələ də xilas olmaq üçün mübarizə apardığı səfalət dövrünə qərq etdi. Bu borc Haiti xalqının köləlik zəncirindən qurtulmaq və ölkənin mövcudluğunu qoruyub saxlamaq üçün ləyaqətli mübarizəyə görə bir növ cəza idi. Bu, Haitinin qaradərili xalqının iqtisadi və sosial potensialını nəsillər boyu boğan ədalətsiz cəza idi.

Fransa Haitinin təbii sərvətlərini hələ də talamaqdadır. Bu, iqtisadi neokolonializmdir. Birbaşa siyasi idarəçiliyin sona çatmasına baxmayaraq, əvvəllər müstəmləkə olmuş Haiti kimi bir çox ölkələr hələ də keçmiş müstəmləkəçi dövlətlərlə qeyri-bərabər iqtisadi münasibətlərdə “tələ”yə düşüblər. Bu əlaqələr çox vaxt böyük güclərin maraqlarına uyğun davam edir. Haiti ilə bağlı vəziyyət də eynidir. Bu əlaqələrdə balansın olmaması beynəlxalq aktorların Haitini iqtisadi cəhətdən asılı saxlamaq üçün daimi təzyiqi ilə müşayiət olunur, onun öz resurslarını idarə etmək qabiliyyətini zəiflədir [2].

Azərbaycan bu gün dünyada müstəmləkəçiliyə qarşı mübarizə aparan əsas dövlətlərdən biridir. Artıq bir neçə ildir ki, ölkəmiz neokolonializmə qarşı mübarizəni əsas prioritetlərdən biri elan edib. Rəsmi Bakı Qarabağda işğala son qoyduqdan sonra müstəmləkəçilik siyasəti ilə bağlı prinsipial mövqe ortaya qoyub, beynəlxalq tədbirlərə ev sahibliyi edib. Məhz Bakıdan başlayan beynəlxalq təşəbbüs, daha dəqiq desək, neokolonializmə qarşı “Bakı təşəbbüsü” öz bəhrəsini verməkdədir.

## Nəticə

XV əsrdə başlayan coğrafi kəşflərlə Avropa dövlətləri, xüsusilə İspaniya, Portuqaliya, İngiltərə və Fransa yeni torpaqlar kəşf edərək bu torpaqları müstəmləkə etdilər.

Kontinental Avropanın zənginləşməsi və sənayeləşməsi ilə yeni resurslar və yeni bazarlar axtarmağa başladı. Yaxın Şərq və Şimali Afrika neft ehtiyatlarına, strateji mövqelərinə və dini sərvətlərinə görə imperiya dövlətlərinin hədəfinə çevrilib. Birinci Dünya müharibəsi zamanı Fransa Suriyaya, o cümlədən Fələstin və Livana öz hakimiyyəti altında böyük mandat vermək arzusunda idi. Bu yolla o, Yaxın Şərq və Şərqi Aralıq dənizində hökmranlıq etməyi, eyni zamanda müqəddəs Qüdsü nəzarətdə saxlamağı hədəfləyib. İngiltərə və Fransanın başçılıq etdiyi imperiya dövlətlərinin Yaxın Şərq və Afrikadakı hegemonluğu İkinci Dünya müharibəsinin sonuna qədər davam etdi. Müharibədən sonra imperiya dövlətlərinin zəifləməsi və müstəmləkə dövlətlərində baş verən millətçilik hərəkatları bu dövlətlərə müstəqillik əldə etməyə imkan verdi. Ancaq bu vəziyyət müstəmləkə dövlətlərinə heç vaxt tam müstəqillik vermədi. Yeni müstəmləkəçilik anlayışı doğuldu və koloniyalar üzərində hegemonluq iqtisadi, siyasi təzyiqlər və mədəni imperializm tərəfindən idarə olunan idarəçilər vasitəsilə davam etdi. Sistemli şəkildə yaradılmış terror mühiti, məzhəbçilik və irqçiliyin alovlanması bu ölkələrdə xaosu davam etdirib. Terror təşkilatları, üsyançılar və hərbiləşdirilmiş strukturlar vasitəsilə üçüncü dövlətlərə qarşı müharibələr aparılmağa başlanıb. Dünyada güc balansı Qərb mərkəzindən Asiya-Sakit Okean hövzəsinə doğru dəyişdiyi bir vaxtda ABŞ və Avropa Asiyaya yaxın regionlarda öz yeni ağırlıq mərkəzlərini yaratmağa başlayıblar.

## ƏDƏBİYYAT


1. Kolonializmin fəsadları və neokolonializmlə mübarizədə Azərbaycan faktoru. 16.12.2023-(https://respublika-news.az/az/news/kolonializmin-fesadlari-ve-neokolonializmle-mubarizede-azerbaycan-faktoru).
2. Müstəmləkəçi dövlət kimi Fransa Haitinin yaşadığı çətin şəraitə görə mənəvi və tarixi məsuliyyət daşıyır - 27.09.2024 – (https://azertag.az/xeber/mustemlekechi_dovlet_kimi_fransa_haitinin_yasadigi_chetin_seraite_gore_menevi_ve_tarixi_mesuliyyet_dasiyir-3201090).
3. Atasoy F. Küreselleşme ve Milliyetçilik. İstanbul: Ötüken, 2018, 350 s.
4. Chomsky N. Sömürgecilikten Küreselleşmeye. Ankara: Ütopya Yayınları, 2001,140 s.
5. Gündüz A. Sömürgecilik Kavramı ve Sömürgeci Devletlerin Uyguladıkları Taktikler, "Ortadoğu Örneği". Tarih Okulu Dergisi, 2016, 25, s. 763-784: (https://johschool.com/Makaleler/1126375649_AHMET%20GÜNDÜZson.pdf).
6. İşler A. Uluslararası Güç Odağında Ortadoğu ve Batı Ülkelerinin Gelişmişliğine Tarihsel Bakış. Bitlis Eren Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 7 (2), s. 757-772. (https://dergipark.org.tr/tr/pub/bitlissos/issue/41200/485287).
7. Joll J. Gordon Martel. Birinci Dünya Savaşı Neden Çıktı. (Çev. O.Dinç Tayanc). İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2016,
8. Kaymak M. Hegemonya Tartışmaları Işığında İngiliz ve Amerikan Hegemonyaları: Yönlendirici Hegemonyadan Kural Koyucu Hegemonyaya. Hacettepe Üniversitesi İkdisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2016, 34 (1), 63-92. (https://dergipark.org.tr/tr/download/article-file/838013).
9. Loomba A. Kolonyalizm Postkolonyalizm. İstanbul: Ayrıntı Yayınları, 2000, 310 s.
10. Okur M.A. Emperyalizm, Hegemonya, İmparatorluk. Ankara, Yayınevi: Ötüken neşriyat, 2010, 425 s.
11. Ritzer G. Sosyoloji Kuramları. Ankara: De Ki Basım Yayım, 2018, 672 s.
12. Said E. Oryantalizm, Sömürgeciliğin Keşif Kolu. İstanbul: Pınar Yayınları,1999, 528 s.
13. Uygur E. & Uygur F. Fransız Sömürgecilik Tarihi Üzerine Bir Araştırma. Türkiye sosyal Araştırmalar dergisi.2013. 17 (3), 273-286. (https://dergipark.org.tr/tr/download/article-file/200454).
14. Young R. Postkolonyalizm. Tarihsel Bir Giriş. 2016, 672 s.
15. Strang D. Global Patterns of Decolonization, 1500-1987 // International Studies Quarterly,

No. 35, 1991, p.p.429-454

16. Allman J. Between the Present and History: African Nationalism and Decolonization. The Oxford Handbook of Modern African History, Ed. John Parker, Richard Reid, New York, Oxford University Press, 2013, 230 p.
17. Kwame N. Neo colonialism - the last stage of imperialism. Publisher: Panaf. 2009, 310 p.
18. García F.J.M. La descolonización de Asia y África. El movimiento de los países no alineados. Sección Temario de oposiciones de Geografía e Historia, Clío 37, 2011, 2 p.

***Резюме***

***Наргиз Нагиева***

***Колониальная традиция и неоколониализм***

Колонизация, начавшаяся в истории человечества как «несправедливое использование чужих ресурсов», приобрела современный смысл в XV веке. Это феномен, когда европейские могущественные государства используют земли и ресурсы стран мира для своих собственных стран, исследуя, аннексируя, оккупируя и конфисковывая их, как процесс, который начался в конце XIX века и продолжается по сей день. В этом явлении, начавшемся в хронологическом порядке, когда европейцы обратились к морям и нашли Америку (1492 г.), Англия со временем получила неоспоримое преимущество и до недавнего времени имела крупнейшую колониальную империю в мире. Империализм и гегемония начались с древних времен с распространения империй на большие территории и продолжали расширяться и продвигаться, пока не столкнулись с новой, более могущественной силой. В наше время великие державы также нашли новый метод роста и экспансии, чтобы приобретать землю и доминировать над ней. Эксплуататорская гегемония все еще сохраняется.

Освобождение стран, веками живших под господством колониальных держав, сопровождалось требованиями народа страны о развитии через индустриализацию. Но в то время, когда растут реальные надежды и освободительные движения охватывают весь мир, будет казаться, что страны, реализовавшие национальные программы развития, будут отставать до тех пор, пока не смогут конкурировать с мировым капиталом.

Неоколониализм – это междисциплинарная область исследований, изучающая, как колониализм продолжает существовать в экономическом, политическом и финансовом отношении, независимо от официального окончания колониального правления. Неоколониальная принадлежность подвергается сомнению из-за существования и продолжающегося влияния новых форм, а также возражений против принятия процесса колониализма как явного или скрытого.

**Ключевые слова:** *нео-колониализм, империализм, колония, Запад, колониализм, Африка, Франция.*

***Summary***

***Nargiz Nagieva***

***Colonial Tradition and Neocolonialism***

Colonization, which began in human history as "unfair use of other people's resources", acquired its modern meaning in the 15th century. It is a phenomenon of European powerful states using the lands and resources of world countries for their own countries by exploring, annexing, occupying and confiscating them as a process that started at the end of the 19th century and continues to this day. In this phenomenon, which started chronologically when the Europeans turned to the seas and found America (1492), England gained an indisputable advantage over time and had the largest colonial empire in the world until recent times. Imperialism and hegemony began since ancient times with the spread of empires over large lands and continued to expand and advance until they encountered a new and greater power. In modern times too, great powers have found a new method of growth and expansion in order to acquire and dominate land. Exploitative hegemony still persists.

The liberation of the countries that lived under the domination of the colonial powers for centuries was observed with the demands of the people of the country for development through industrialization. But at a time when real hopes are rising and liberation movements are covering the whole world, it will seem that the countries that have implemented national development programs will fall behind until they cannot

compete with the world capital.

Neocolonialism is an interdisciplinary field of research that investigates how colonialism continues economically, politically and financially, regardless of the official end of colonial rule. Neocolonial affiliation is challenged by the existence and continuing influence of new forms, with objections to the acceptance of the process of colonialism as an overt or covert one.

**Key words:** *neo-colonialism, imperialism, colony, East, colonialism, Africa, France*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.